

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 215 (21.625)

15 noyabr 2016-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Asiya İnkişaf Bankının vitse-prezidenti Vençay Janqı qəbul edib.

Azərbaycan ilə Asiya İnkişaf Bankı arasında əməkdaşlığın səviyyəsinin razılıq doğurduğunu qeyd edən dövlətimizin başçısı qurumun prezidenti Takehiko Nakao ilə Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının ötən il Bakıda keçirilən 48-ci illik toplantısı zamanı görüşünü məmnunluqla xatırlayıb. Ölkəmizin ev sahibliyi etdiyi bu tədbirin uğurla keçirildiyini, quruma üzv olan ölkələrdən çoxlu sayda nümayəndələrin burada iştirak etdiyini deyən Prezident İlham Əliyev bu tədbirdən sonra Azərbaycanın Asiya İnkişaf Bankı ilə əməkdaşlığında yeni dinamikanın müşahidə olunduğunu bildirib.

Vençay Janq 2015-ci ildə Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının Bakıda keçirilən 48-ci illik toplantısına verdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını bildirib. Asiya İnkişaf Bankı ilə Azərbaycan arasında çox yaxşı əməkdaşlıq əlaqələrinin olmasından məmnunluğunu ifadə edən Vençay Janq ölkəmizin Asiya İnkişaf Bankına qoşulduğu 1999-cu ildən ötən dövr ərzində qurum tərəfindən Azərbaycana 2,8 milyard dollar məbləğində vəsaitin ayrıldığını qeyd edib. Təmsil etdiyi qurumun ölkəmizdə həyata keçirilən bir sıra layihələrlə yanaşı, "Cənub Qaz Dəhlizi" və "Şahdəniz" kimi mühüm layihələrə də dəstək və önəm verdiyini xatırladan Vençay Janq layihələrlə bağlı məsələləri müzakirə etmək üçün bank daxilində xüsusi şuranın yaradıldığını vurğulayıb.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Noyabrın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İran İslam Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cavad Cahangirzadə ilə görüşmüşdür.

Ali Məclisin Sədri qonağı ölkəmizə səfir təyin olunması münasibətilə təbrik etmiş, dövlət başçıları tərəfindən Azərbaycan-İran əlaqələrinin inkişafı sahəsində həyata keçirilən tədbirlərdən danışmışdır. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın yaxın vilayətləri arasında əlaqələrin inkişaf etdiyini bildirən Ali Məclisin Sədri əməkdaşlığın daha da genişlənəcəyinə əminliyini ifadə etmiş, səfirə gələcək işlərində uğurlar arzulamışdır.

Cavad Cahangirzadə səmimi qəbula görə minnətdarlıq etmiş, ölkələrimiz arasındakı əlaqələrin inkişafında Naxçıvanın əhəmiyyətini vurğulamışdır. Səfir Naxçıvan Muxtar Respublikasının inkişafı və qorunub saxlanılması sahəsində görülən işləri yüksək qiymətləndirmiş, bunun əməkdaşlıq üçün geniş imkanlar açdığını bildirmişdir.

İran İslam Respublikasının Naxçıvandakı Baş konsulu Mənsur Ayrom görüşdə iştirak etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Heydər Əliyev Muzeyində elmi-praktik konfrans keçirilib

***Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində muxtar respublikanın ali təhsil ocaqları tələbələrinin iştirakı ilə "Ümummilli lider Heydər Əliyev və Azərbaycan bayrağı" mövzusunda elmi-praktik konfrans keçirilib.***

Konfransı giriş sözü ilə muzeyin direktoru Ramil Orucəliyev açaraq "Naxçıvanda ucaldılan Dövlət Bayrağı" mövzusunda danışıb.

Konfransda Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, tarix üzrə fəlsəfə doktoru, dosent Elman Cəfərli "Naxçıvan Muxtar Respublikasının Dövlət bayraqları" mövzusunda məruzə edib.

Elman Cəfərli tədbir iştirakçılarının diqqətinə çatdırıb ki, tarixən bayraq, gerb və sonralar himn dövlətçilik simvolu kimi ölkələrin əsas rəmzlərini təşkil edib, Konstitusiya və qanunlarda əks olunmuş xüsusi hüquqi normalarla dövlət atributu kimi möhkəmləndirilib. Naxçıvan Muxtar Respublikası da yarandığı vaxtdan konstitusion səviyyədə özünün atributlarına malik olub.

Naxçıvan Muxtar Respublikasının Dövlət bayraqları haqqında məlumatları tarixi faktlarla konfrans iştirakçılarının diqqətinə çatdıran Elman Cəfərli bildirib ki, 1990-cı il noyabrın 17-də keçirilən Naxçıvan MSSR Ali Sovetinin yeni tərkibdə ilk sessiyası bir sıra tarixi qərarların qəbul edilməsi ilə əlamətdar olub. İlk sessiyaya sədrlik edən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilən qərarla "Naxçıvan Muxtar Sovet Sosialist Respublikası" adından "Sovet Sosialist" sözləri çıxarılıb və muxtar respublika rəsmən "Naxçıvan Muxtar Respublikası" adlandırılıb. Digər bir qərarla muxtar respublikanın Ali Soveti həmin gündən Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılıb. Nəhayət, 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci il noyabrın 9-da qəbul edilmiş üçrəngli, ayulduzlu bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edilib və həmin bayrağın Azərbaycanın Dövlət Bayrağı kimi tanınması barədə Azərbaycan SSR Ali Sovetinə qanunvericilik təşəbbüsü qaydasında müraciət edilib.

Beləliklə, Naxçıvan Muxtar Respublikasının hazırkı Dövlət Bayrağı muxtar respublika Konstitusiyasının 10-cu maddəsinə görə Azərbaycan Respublikasının Dövlət Bayrağıdır. Bu isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il noyabrın 17-də, Azərbaycan Respublikası Ali Sovetinin isə 1991-ci il fevralın 5-də qəbul etdiyi Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, ay və səkkizguşəli ulduzdan ibarət bayrağıdır.

Naxçıvan şəhərindəki Dövlət Bayrağı Muzeyinin bələdçisi Sevinc Rəsulova isə "Bayrağımız qürur mənbəyimizdir" mövzusunda məruzə edib. Məruzədə qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı haqqında" 2014-cü il 17 noyabr tarixli Sərəncamına əsasən, hər il noyabr ayının 17-si "Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü" kimi qeyd edilir.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında" 2014-cü il avqustun 22-də imzaladığı Sərəncam böyük tarixi əhəmiyyətə malikdir. Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması ulu öndərimiz Heydər Əliyevin yoluna sədaqətin, sevginin təzahürüdür. Ən müqəddəs rəmzlərdən olan bayraq millətin varlığının, mövcudluğunun sübutu, müstəqil dövlət qurmaq və ona sahib çıxmaq bacarığının əsas göstəricisidir. Odur ki, özünütəsdiq simvolu olan bayraq bütün dünyada qürur və güvənc yeri sayılır. Bayraq həm də dövlətin və xalqın kimliyinin, apardığı azadlıq mücadiləsinin, təfəkkür və düşüncə tərzinin ən real ifadəsidir. Məhz bu baxımdan xalqımızın azadlığını, suverenliyini, öz istiqlalı uğrunda apardığı mübarizəni, milli kimliyini tərənnüm edən üçrəngli bayrağımız milli qürurumuzdur. Biz noyabrın 17-ni "Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü" kimi qeyd etməklə bir daha bu qüruru, fəxarəti yaşayırıq.

Elmi-praktik konfransda "Yüksəlişə üçrəngli yol" filmi nümayiş etdirilib.

Sonra konfrans iştirakçıları Heydər Əliyev Muzeyinin ekspozisiyası ilə tanış olublar.

## İran İslam Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri muxtar respublikanın mədəniyyət və istehsal müəssisələri ilə tanış olub



İran İslam Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cavad Cahangirzadə noyabrın 13-də Naxçıvan Muxtar Respublikasına səfərə gəlib. Noyabrın 14-də səfir muxtar respublikanın mədəniyyət və istehsal müəssisələrinə, Araz çayı üzərindəki Culfa-Culfa körpüsünə baxıb, hər iki ölkənin buradakı sərhəd-keçid məntəqələri ilə tanış olub.

Diplomat əvvəlcə ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucaldılan abidəsini və Heydər Əliyev Muzeyini ziyarət edib.

İran İslam Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cavad Cahangirzadə Naxçıvan Biznes Mərkəzində də olub. Qonağa mərkəzin fəaliyyəti və muxtar respublikanın sosial-iqtisadi inkişaf göstəriciləri barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, mərkəzdə müxtəlif müəssisələrin məhsulları, sənətkarlar tərəfindən hazırlanan əl işləri və rəsm əsərləri nümayiş olunur. Bu gün 366 növdə məhsul istehsal edilən muxtar respublikada sahibkarlığın inkişafı diqqət mərkəzindədir. Yerli istehsal müəssisələrinin fəaliyyəti yaxşılaşdırılır, istehsal olunan məhsulların keyfiyyəti diqqətdə saxlanılır, daxili bazarın tələbatı ödənilir. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, 2016-cı ildə muxtar respublikada 23 yeni istehsal və xidmət sahəsi yaradılıb.

Diplomat Culfa gömrük sərhəd-buraxılış məntəqəsində də olub. Məlumat verilib ki, muxtar respublika gömrük orqanlarının infrastrukturunun yenidən qurulması və maddi-texniki bazasının möhkəmləndirilməsi tədbirlərindən Culfa Gömrük İdarəsinə də xeyli pay düşüb. 2007-ci il yanvar ayının 16-da yeni sərhəd-keçid kompleksi tikilib istifadəyə verilib. Muxtar respublikanın xarici ticarət əlaqələrində Araz çayı üzərindəki Culfa-Culfa körpüsünün müstəsna rolu və əhəmiyyəti nəzərə alınaraq bu istiqamətdə yeni körpü salınıb. Eni 12 metr, uzunluğu isə 250 metr olan körpü 2011-ci il iyun ayının 24-də istifadəyə verilib. İran İslam Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri İran Culfasındakı gömrük sərhəd-buraxılış məntəqəsi ilə də tanış olub.

Diplomat Ordubad və Marazad Su Elektrik stansiyalarının tikintisi ilə də maraqlanıb.

Cavad Cahangirzadə Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yerləşdiyi qədim "Qeysəriyyə" binası ilə də tanış olub. Qonağa XII əsrə aid olan bu tarixi abidə haqqında ətraflı məlumat verilib.

Noyabrın 14-də İran İslam Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cavad Cahangirzadənin Naxçıvan Muxtar Respublikasına səfəri başa çatıb.

**Xəbərlər şöbəsi**

## Naxçıvanda Azərbaycan dili və riyaziyyat fənlərinə həsr olunan seminar keçirilib

*Naxçıvan şəhərində yerləşən Naxçıvan Dövlət Texniki Kollecində Azərbaycan dili və riyaziyyat fənlərinə həsr olunan seminar keçirilib.*






Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) tərəfindən keçirilən seminara TQDK-nın Naxçıvan Muxtar Respublikası Regional Bölməsinin əhatə etdiyi şəhər və rayonların ümumtəhsil müəssisələrinin müvafiq fənn müəllimləri qatılıblar.

Plenar iclasda çıxış edən Dövlət İmtahan Mərkəzi Direktorlar Şurasının sədri Məleykə Abbaszadə 2017-ci ildə mərkəz tərəfindən ümumi (9 illik) orta təhsil bazasında buraxılış imtahanlarının keçirilməsi qaydaları haqqında ətraflı məlumat verib. Bildirib ki, müasir dünyada müşahidə olunan inkişaf tendensiyaları bir çox sahələrin, o cümlədən təhsilin və onun fəlsəfəsinin dəyişilməsini zərurətə çevirib. Bu gün artıq "yaddaş məktəbi"ndən "təfəkkür məktəbi"nə keçilib. Təhsilin məzmununun yeni standartlar əsasında formalaşdırılması məqsədilə 2008-ci ildən başlayaraq respublikanın ümumtəhsil müəssisələrində yeni təhsil proqramları – kurikulumlar tətbiq olunur və yeni məzmun standartlarına uyğun hazırlanmış dərsliklərdən istifadə edilir. Təbii ki, yeni təhsil proqramlarının tətbiqi ilə təhsil alan şagirdlərin bacarıqlarının ölçülməsi aktual məsələyə çevrilib. Bu ehtiyacın aradan qaldırılması məqsədilə görülən işlərə TQDK-nın Əsasnaməsində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 16 yanvar tarixli Fərmanı güclü təkan verib. Həmin fərmanla TQDK-ya yekun qiymətləndirmənin (attestasiyanın) təşkili məqsədilə respublikanın ümumtəhsil müəssisələrinin V-XI sinif şagirdləri arasında monitorinq imtahanlarını keçirmək vəzifəsi həvalə olunub.

Şura sədri qeyd edib ki, TQDK fərmandan irəli gələn məsələləri yerinə yetirmək üçün 2013-cü ildən başlayaraq respublikanın ümumtəhsil müəssisələrində monitorinq imtahanları keçirib. Monitorinq imtahanlarının nəticələri üzərində aparılan elmi-tədqiqat işləri əsasında yazı işlərinin, eləcə də esselərin qiymətləndirilməsi prosesini həyata keçirmək üçün yeni qiymətləndirmə mexanizmi hazırlanıb. Bu mexanizm artıq 4 ildir tətbiq edilir. Hazırda IX sinifdə təhsil alanların məzmun standartları üzrə mənimsəmə səviyyələri və bacarıqlarının yoxlanılması yeni qiymətləndirmə vasitələri ilə aparılır.

"Bu şagirdlərin buraxılış imtahanları iki mərhələdə keçiriləcək. Birinci mərhələnin fevral-mart aylarında, ikinci mərhələnin isə iyun ayında keçirilməsi nəzərdə tutulur. Azərbaycan dili və riyaziyyat fənlərindən açıq test tapşırıqları tətbiq olunacaq", – deyən Məleykə Abbaszadə bildirib ki, buraxılış imtahanında iştirak etməyən şagirdlərə ümumi orta təhsil haqqında sənəd verilməyəcək. Pedaqoji ictimaiyyətin, valideynlərin və şagirdlərin buraxılış imtahanında tətbiq olunacaq yeni qaydalarla tanış olması məqsədilə Gəncə, Şirvan və Şəki şəhərlərində seminarlar keçirilib. Müəyyən olunmuş qrafik üzrə Lənkəran, Xaçmaz, Ağcabədi və Göyçayda bölgə seminarları təşkil ediləcək. Yaxın vaxtlarda "Abituriyent" jurnalının xüsusi buraxılışında ümumi orta təhsil səviyyəsində yeni təhsil proqramları üzrə təhsil alanların biliyinin yekun qiymətləndirilməsinin həyata keçirilməsi qaydaları, Azərbaycan dili, rus dili və riyaziyyat fənlərindən buraxılış imtahanı proqramları, imtahanda V-IX siniflər üzrə yoxlanacaq məzmun standartları, tapşırıq nümunələri və onların qiymətləndirmə meyarları nəşr olunacaq. Həmçinin həmin fənlərdən respublikanın ümumtəhsil müəssisələrində istifadədə olan IX sinif dərslik komplektləri əsasında qiymətləndirmə vəsaitləri çapa hazırlanır.

Bildirilib ki, yeni qaydalara əsasən, birinci mərhələdə qiymətləndirmə müəyyən qədər vaxt aparacaq. Çünki yazı işləri marker-müəllimlər tərəfindən yoxlanılacaq. Yoxlama elə aparılacaq ki, qiymətləndirməyə hər hansı kənar təsir olmasın. Aparılan monitorinq imtahanlarında artıq bu texnologiya tətbiq edilib. Təkcə bu il IX sinifdə təhsil alan 113 min şagirddən 60 mindən çoxu həmin imtahanlara cəlb olunub. VIII sinifdə oxuyan 50 min şagird də V-VI siniflərdən monitorinq imtahanlarına qatılıb.

Tədbirdə 2016-cı ildə ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanlarında istifadə edilən test tapşırıqları, yeni təhsil proqramları (kurikulum) əsasında hazırlanan dərsliklər barədə də söhbət açılıb, suallar cavablandırılıb.

Plenar iclasdan sonra seminar işini bölmə iclaslarında davam etdirib.

**Rauf ƏLİYEV**

## Beynəlxalq Gözdən Əlillər Günü qeyd edilib



***Noyabrın 12-də Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Beynəlxalq Gözdən Əlillər Günü münasibətilə tədbir keçirilib.***

Tədbirdə Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış ediblər. Bildirilib ki, xüsusi qayğıya ehtiyacı olan şəxslər dövlətimizin hərtərəfli qayğısı əhatəsindədirlər. Onların sosial reabilitasiyaları, təhsil almaları, cəmiyyətə inteqrasiyaları, habelə asudə vaxtlarını səmərəli keçirmələri istiqamətində davamlı tədbirlər görülür.

Vurğulanıb ki, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində görmə məhdudiyyəti olan şəxslərin informasiya texnologiyalarının imkanlarından istifadələri üçün hərtərəfli şərait yaradılıb. Bu kateqoriyadan olan şəxslər üçün brayl əlifbasının tədrisi üzrə kurslar təşkil olunur, aylıq jurnal nəşr edilir, həmçinin onlara audio kitabxana xidməti göstərilir.

Qeyd edək ki, həmin gün muxtar respublikanın rayon mərkəzlərində də Beynəlxalq Gözdən Əlillər Günü münasibətilə tədbirlər keçirilib. Bu tədbirlərdə, ümumilikdə, görmə məhdudiyyəti olan 300 şəxsə sovqat təqdim olunub.

Tədbirdə iştirak edə bilməyən görmə məhdudiyyəti olan şəxslərə evlərində baş çəkilib, onlara sovqat verilib.

Sağlamlıq imkanları məhdud ifaçılardan ibarət "İnam" musiqi qrupu Şərur rayonunda təşkil olunan tədbirdə konsert proqramı ilə çıxış edib.

Tədbir iştirakçıları onlara göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən ictimaiyyətin diqqətini gözdən əlillik və zəif görmə problemlərinə cəlb etmək məqsədilə 13 noyabr tarixi Beynəlxalq Gözdən Əlillər Günü kimi təsis edilib. Bu tarix dünyada ilk dəfə gözdən əlillər üçün qabartmalı şriftlər yaradan və görmə məhdudiyyəti olan şəxslərə təlim keçən fransız pedaqoqu Valentin Qayuinin (1745-ci il) anadan olduğu gündür.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

***Muxtar respublikada hər bir sahədə olduğu kimi, dövlət orqanları tərəfindən vətəndaşlara yerlərdə hüquqi xidmətlərin göstərilməsi istiqamətində də son illərdə xeyli işlər görülüb və həyata keçirilən tədbirlər vətəndaşlar tərəfindən rəğbətlə qarşılanıb.***

## Səyyari xidmət fəaliyyətini genişləndirir

Ötən il martın 7-də Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində yeni yaradılan səyyari xidmət insanlara daha bir qayğının ifadəsidir. Səyyari xidmət üçün nazirliyə "Hyundai" markalı avtomobil alınıb. Avtomobil xidmət sahələrinə uyğun olaraq, səyyari xidmətin göstərilməsi üçün kompüter, POS-terminal, fotoaparat, elektron məsafəölçən və digər avadanlıqlarla təchiz edilib.

Səyyari xidmət avtomobili vasitəsilə yerlərdə vətəndaşlara ümumvətəndaş pasportlarının və şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, məhkumluq haqqında və arxiv arayışlarının verilməsi, ov silahlarının qeydiyyata alınması üzrə hüquqi xidmətlər göstərilir. Xidmət avtomobilində quraşdırılan müasir avadanlıqlar ümumvətəndaş pasportlarının, şəxsiyyət və sürücülük vəsiqələrinin yerlərdə vətəndaşlara təqdim olunmasına imkan verir.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyindən aldığımız məlumata görə, 2015-ci il ərzində səyyari xidmətə 6320 müraciət edilib. Onlardan 5123-ü şəxsiyyət vəsiqəsi, 1155-i sürücülük vəsiqəsi, 29-u ümumvətəndaş pasportu, 2-si ov silahlarının qeydə alınması, 11-i məhkumluq arayışını almaq üçün edilən müraciətlər olub.

Cari ildə də səyyari xidmət fəaliyyətini davam etdirir. Oktyabr ayının 24-dən noyabr ayının 8-dək Şərur rayonunun Dəmirçi, Danyeri, Zeyvə, Maxta, Mahmudkənd, Aşağı Yaycı, Xanlıqlar, Tumaslı, Yengicə, Püsyan, Çomaxtur və Qorçulu kəndlərində əhaliyə səyyari xidmət göstərilib. Bu müddətdə 213 nəfər şəxsiyyət, 61 nəfər sürücülük vəsiqələri almaq üçün müraciət edib. Noyabr ayının 14-dən xidmət öz fəaliyyətini Ordubad rayonunda davam etdirir.

Məlumat üçün bildirək ki, ilin ötən 10 ayı ərzində xidmət tərəfindən muxtar respublikanın bütün rayonları üzrə 3549 nəfər şəxsiyyət, 1169 nəfər sürücülük vəsiqəsi, 40 nəfər məhkumluq arayışı ilə təmin edilib.

**Muxtar MƏMMƏDOV**

## Muxtar respublikamızın yaşıl örtüyü zənginləşdirilir

### *Ötən həftə keçirilən iməciliklərdə 20480 ədəd ağac, bəzək və gül kolları əkilib*

***Ötən həftə muxtar respublikada keçirilən iməciliklər yenə də iştirakçıların yüksək fəallığı ilə başa çatıb. Bu da səbəbsiz deyil. Çünki naxçıvanlılar bir həqiqəti dərindən dərk edirlər ki, əkilən hər bir gül kolu, meşə və meyvə ağacı bu qədim diyarın hüsnünə bir yaraşıq verir, məmləkətimizin yaşıl örtüyünü zənginləşdirir, sağlamlığımıza xidmət edir. Bütün bunlar iməcilik iştirakçılarının fəallığını təmin edən başlıca amillərdir.***

Məlumat üçün bildirək ki, ötən həftə iməciliklərdə 24275 nəfər iştirak edib. Onlar 20480 ədəd ağac, bəzək və gül kolları əkiblər.

Naxçıvan şəhərinin ərazisində, ümumilikdə, 425 ədəd olmaqla Uzunoba Su Anbarının yaxınlığındakı terrasda 215 ədəd meşə ağacı və 210 ədəd üzüm kolu əkilib.

Şərur rayonunda 3625 meyvə tingindən istifadə olunub. Bu tinglərin 3000 ədədi Xanlıqlar-Qıvraq yolunun kənarlarına, 625 ədədi digər ərazilərə basdırılıb.



Ötən həftə ən çox ağac və bəzək kolları Babək rayonunda əkilib. Belə ki, babəklilər Əshabi-Kəhf ziyarətgahına gedən yolun kənarlarında və Naxçıvan-Ordubad magistralının Çeşməbasar kəndi hissəsində 3000 ədəd meyvə, 2200 ədəd meşə ağacı olmaqla, ümumilikdə, 5200 ədəd ting əkiblər.

Ordubad rayonunun ictimaiyyəti də iməciliklərdə mütəşəkkilliklə çalışıb. Müxtəlif idarə, müəssisə və təşkilatların kollektivləri torpağa, ümumilikdə, 2770 ədəd ting basdırıblar. Belə ki, Naxçıvan-Ordubad magistralından Düylün kəndinə ayrılan yolun kənarında salınmış 1 hektarlıq bağda 690 ədəd, magistral yolun kənarlarında bərpa məqsədilə 580 ədəd meyvə, kəndlərdə 800 ədəd meşə və 700 ədəd meyvə ağacı əkilib.

Culfalılar şəhərin girəcəyində, Yaycı-Dizə kəndləri arasındakı yol kənarlarında, Darıdağ massivində, Əlincə kəndinə və Gömrük İdarəsinə gedən yolun kənarlarında, ümumilikdə, 50 ədəd üzüm kolu, 650 ədəd meyvə, 400 ədəd meşə və 10 ədəd həmişəyaşıl ağac olmaqla, 1110 ədəd ting əkiblər.

Kəngərli rayonunun sakinləri də təbiətimizin zənginləşdirilməsinə öz töhfələrini veriblər. Onlar iməciliklərdə 2050 tingdən istifadə ediblər. Bölgə sakinləri Naxçıvan-Sədərək magistral yolunun Qabıllı kəndi hissəsindəki 1 hektarlıq yeni salınmış bağda 1350 ədəd üzüm kolu, həmin ərazidəki bulağın yaxınlığında 200 ədəd meyvə ağacı, ümumilikdə, magistral yolun kənarlarında 500 ədəd gül kolu əkiblər.

Şahbuzlular rayon mərkəzindəki yeni salınmış 0,7 hektarlıq bağda 450 ədəd meyvə, Kolanı-Biçənək kəndləri arasındakı yol kənarlarında 480 ədəd meşə ağacı və bərpa məqsədilə 170 ədəd meyvə ağacı əkiblər.

Sədərək rayonunda 4200 ədəd ağac, bəzək və gül kolları əkilib. Bunun 1000 ədədi üzüm kolu, 2600 ədədi gül, 600 ədədi isə meşə ağacı olub.

İməcilik çərçivəsində ahıl vətəndaşların həyətlərində təmizlik-abadlıq işləri aparılıb.

**Xəbərlər şöbəsi**

*Naxçıvan Muxtar Respublikasında aparılan genişmiqyaslı işlər içərisində monoqrafiyaların, kitabların, ümumiləşdirici əsərlərin nəşri özünəməxsus yer tutur. Ötən müddət ərzində muxtar respublikanın siyasi, iqtisadi, elmi, mədəni mühitinə həsr olunmuş əsərlər hazırlanıb nəşr etdirilmişdir. Bu günlərdə həmin nəşrlərin sırasına elmi, siyasi baxımdan böyük əhəmiyyət kəsb edən bir əsər də əlavə olunmuşdur. Bu, "Naxçıvan Muxtar Respublikasının yubileyləri 1924-1984" kitabıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu tərəfindən hazırlanmış kitab "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində yüksək poliqrafik səviyyədə nəşr olunaraq ictimaiyyətin və geniş oxucu kütləsinin ixtiyarına verilmişdir.*

Yeni kitablar

## Naxçıvan Muxtar Respublikasının yubileylərinə həsr olunmuş dəyərli əsər




Kitab ümummilli lider Heydər Əliyevin "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq" sözləri ilə açılır. Ulu öndərin bu fikirləri Naxçıvanın muxtariyyətinin Azərbaycan xalqı üçün nə qədər böyük önəm daşıdığını təsdiq edir. Naxçıvanın muxtariyyətinin qorunub saxlanması, itirilmiş torpaqlarının qaytarılması siyasi, diplomatik yollarla yanaşı, həm də məsələnin tarixi cəhətdən obyektiv şəkildə araşdırılmasından da keçir. Bu mənada, dahi şəxsiyyətin fikirləri tədqiqatçıları muxtar respublika tarixinin bütün səhifələrini, elmə məlum olmayan qaranlıq məqamlarını dərindən araşdırmağa, xalqa çatdırmağa səsləyir və səfərbər edir. Tam qətiyyətlə demək olar ki, yenicə işıq üzü görən "Naxçıvan Muxtar Respublikasının yubileyləri 1924-1984" kitabının nəşri Naxçıvan Muxtar Respublikası tarixinin elmi ictimaiyyətə məlum olmayan qaranlıq səhifələrinin, sistemli tədqiqata ehtiyacı olan məqamlarının aydınlaşdırılması sahəsində atılmış mühüm addımlardan biridir.

Beş bölmədən ibarət olan kitabın ilk bölməsi "Naxçıvan Muxtar Respublikasının yaradılmasına dair müxtəlif tarixi və arxiv sənədləri"nə həsr olunmuşdur. Bu bölmədə 26 fevral 1923-cü ildən 15 fevral 1926-cı ilə qədər zaman çərçivəsini əhatə edən 7 tarixi sənəd elmi ictimaiyyətin və geniş oxucu kütləsinin diqqətinə təqdim olunur.

Kitabın "Naxçıvan Muxtar Respublikası 25" adlanan ikinci bölməsində "Naxçıvan Muxtar Respublikasının 25 illiyinə dair tədbirlər haqqında" Azərbaycan SSR Nazirlər Sovetinin 3 may 1949-cu il tarixli və "Naxçıvan MSSR-in 25 illiyinin hazırlanması və keçirilməsi haqqında" Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi bürosunun 5 aprel 1949-cu il tarixli qərarı verilmişdir. Bölmədə kitaba daxil edilən SSSR Ali Soveti Rəyasət Heyətinin Sədri N.Şvernikin və SSSR Ali Soveti Rəyasət Heyətinin katibi A.Qorkinin 27 may 1949-cu ildə imzaladığı "Naxçıvan MSSR-in kənd təsərrüfatı, sənaye, elm, mədəniyyət və incəsənət işçilərinin orden və medallarla təltif olunması" haqqında SSSR Ali Soveti Rəyasət Heyətinin sərəncamı da tarixi əhəmiyyətli sənəddir.

Naxçıvan Muxtar Respublikasının 40 illik yubileyinə həsr olunan üçüncü bölməyə daxil edilən sənədlərdən aydın olur ki, Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi bürosunun 5 oktyabr 1964-cü il tarixli iclasında "Naxçıvan MSSR-in 40 illiyinin keçirilməsi haqqında" məsələ müzakirə olunmuş, muxtar respublikanın 40 illiyi ilə əlaqədar tədbirlər planı hazırlanmış, Vilayət Partiya Komitəsinin bürosunda yubiley münasibətilə Bakı şəhərində Naxçıvan MSSR ədəbiyyat və incəsənət günlərinin keçirilməsi haqqında qərar qəbul olunmuşdur. Həmçinin burada Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin, Naxçıvan MSSR Ali Sovetinin Naxçıvan MSSR-in 40 illiyinə həsr olunmuş iclası və Naxçıvan şəhər zəhmətkeşlərinin muxtar respublikanın 40 illiyinə həsr olunmuş təntənəli mitinqi haqqında da məlumat verilmişdir.

Kitabın əsas bölmələrindən biri ümummilli lider Heydər Əliyevin "böyük və nurlu bayram" kimi dəyərləndirdiyi Naxçıvan Muxtar Respublikasının 50 illik yubileyinə həsr olunmuş bölmədir. Bu bölmədə həmin vaxt Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin I katibi işləmiş A.Hüseynovun Naxçıvan Muxtar Respublikasının yaranmasının 50 illiyinə hazırlıq ilə əlaqədar Azərbaycan KP Mərkəzi Komitəsinə təklifi, Azərbaycan KP MK bürosunun bu təkliflə əlaqədar qəbul etdiyi qərar, Naxçıvan Muxtar Respublikasının 50 illiyinə hazırlıq haqqında Naxçıvan Vilayət Partiya Komitəsi bürosunun iclas protokolundan çıxarış, həmin büronun qərarı ilə təsdiq edilmiş tədbirlər planı, 50 illik münasibətilə Naxçıvan Muxtar Respublikasının Xalqlar dostluğu ordeni ilə təltif olunması haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı və sair özünə yer almışdır.

Bölmədə yer alan materiallardan biri də muxtar respublikanın Xalqlar dostluğu ordeni ilə təltif olunması münasibətilə keçirilən Naxçıvan Vilayət Partiya Komitəsinin və Naxçıvan MSSR Ali Sovetinin birgə təntənəli iclası və bu iclasda həmin vaxt Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin çıxışının mətnidir. Çıxışında Naxçıvan Muxtar Respublikasının keçdiyi yola nəzər salan ulu öndər əldə olunan uğurlardan bəhs etmiş, Xalqlar dostluğu ordenini Naxçıvan Muxtar Respublikasının bayrağına sancmışdır.

Bu uğurlardan böyük güc alan muxtar respublika əhalisi Azərbaycan KP MK-nın I katibi Heydər Əliyevin ölkədə yeritdiyi uğurlu siyasət sayəsində daha böyük uğurlara imza atmış və 3 oktyabr 1974-cü ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə keçmiş ittifaqın ən yüksək mükafatlarından olan Oktyabr inqilabı ordeni ilə təltif olunmuşdu. Bununla əlaqədar materialların daxil edildiyi kitabda həm də Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin və Naxçıvan MR Ali Sovetinin birgə təntənəli iclası və iclasda Azərbaycan KP MK-nın I katibi Heydər Əliyevin çıxışının mətni verilmişdir. Təntənəli iclasda Naxçıvan zəhmətkeşlərini muxtar respublikanın 50 illiyi və onun fəxri mükafat – Oktyabr inqilabı ordeni ilə təltif olunması münasibətilə təbrik edən respublika rəhbəri Heydər Əliyev demişdir: "Naxçıvan yarım əsr ərzində böyük və şanlı yol keçmişdir. 50 il tarixdə bir an kimidir. Lakin iqtisadi, ictimai, siyasi və mədəni tərəqqi pillələri ilə yüksəlişimizin hər ili on illərə bərabərdir. İndi Naxçıvan qabaqcıl sənaye, mexanikləşdirilmiş kənd təsərrüfatı, yüksək mədəniyyət respublikasıdır. ...Naxçıvanı, vaxtı ilə geri qalan bu diyarı vətənimizin cənub sərhədlərində çiçəklənən respublikaya çevirmiş Naxçıvan əməkçiləri bu gün hədsiz sevinir və fəxr edirlər ki, onların nəcib əməyinə yüksək qiymət verilmiş, Naxçıvan MSSR Oktyabr inqilabı ordeni ilə mükafatlandırılmışdır".

Sonra ümummilli lider Heydər Əliyev Oktyabr inqilabı ordenini Naxçıvan Muxtar Respublikasının bayrağına sancmışdır. Həmin vaxt yubiley tədbirləri çərçivəsində açılan Naxçıvan MSSR Xalq təsərrüfatı nailiyyətləri sərgisi və keçirilən bayram şənliyi haqqında materiallar da kitabda əks olunmuşdur. Qısa zaman çərçivəsində, Xalqlar dostluğu ordeni ilə təltif olunmasından, təxminən, 21 ay sonra muxtar respublikanın Oktyabr inqilabı ordeni ilə təltif olunması, heç şübhəsiz ki, ulu öndərin Azərbaycan miqyasında həyata keçirdiyi siyasətin Naxçıvan Muxtar Respublikasında uğurlu tətbiqinin sayəsində əldə olunan nailiyyətlərin nəticəsi idi.

Naxçıvan Muxtar Respublikasının 50 illik yubiley tədbirlərində, bu münasibətlə keçirilən təntənəli iclasda şəxsən iştirak və çıxış etməsi, bunun ardınca, az sonra muxtar respublikanın Oktyabr inqilabı ordeni ilə təltif olunması münasibətilə 1974-cü ildə Naxçıvana ikinci dəfə səfər etməsi, muxtar respublika əhalisi ilə bir yerdə olması, onların uğurlarını yüksək qiymətləndirməsi ulu öndərin Azərbaycanda hakimiyyətinin ilk dövründə də Naxçıvanın muxtariyyət statusuna böyük önəm verməsinin çox mühüm göstəricisidir.

Kitabın sonuncu bölməsi Naxçıvan Muxtar Respublikasının 60 illik yubileyi ilə bağlı materialları əks etdirir. Bu bölməyə Naxçıvan MSSR-in 60 illik yubileyinin keçirilməsi ilə əlaqədar Naxçıvan Vilayət Partiya Komitəsi katibinin Azərbaycan KP MK-ya təklifi, bu təkliflə əlaqədar Azərbaycan KP MK bürosunun qərarı, Naxçıvan Vilayət Partiya Komitəsi bürosunun Naxçıvan MSSR-in 60 illiyi haqqında qərarı, həyata keçiriləcək təşkilati-siyasi tədbirlər planı və yubileylə əlaqədar keçirilən təntənəli iclas haqqında materiallar daxil edilmişdir.

Göründüyü kimi "Naxçıvan Muxtar Respublikasının yubileyləri 1924-1984" kitabında Naxçıvan Muxtar Respublikasının Sovetlər Birliyi dövründə keçirilən dörd yubileyi – 25, 40, 50 və 60 illik yubileyləri haqqında çox dəyərli materiallar toplanmışdır. Tarixi cəhətdən böyük əhəmiyyət kəsb edən, mühüm sənədləri özündə birləşdirən kitaba daxil edilən nadir arxiv və dövlət sənədləri, onların orijinalının fotosurətinin və mətnlərinin Azərbaycan dilinə tərcüməsinin verilməsi kitabın dəyərini artıran müsbət cəhətlərdən biri kimi diqqəti cəlb edir. Həmçinin əsərin dəyərini artıran cəhətlərdən biri kimi artıq tarixə çevrilən nadir fotoşəkillərin kitaba daxil edilməsidir. Bu baxımdan ümummilli lider Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi kimi Naxçıvana 1974-cü ilin fevral və oktyabr aylarında səfərləri zamanı çəkilmiş müxtəlif fotoşəkillər ulu öndərin həmin vaxt iştirak etdiyi tədbirlər haqqında aydın təsəvvür yaradır və istər həmin hadisələrin şahidi olmuş yaşlı nəsil, istərsə də onlar haqqında kitablardan məlumat alan gənc nəsil tərəfindən çox böyük maraqla izlənir.

Fikrimizcə, arxivlərimizdə qorunub saxlanan çox əhəmiyyətli, nadir dövlət sənədlərinin bir qismini özündə əks etdirən bu kitab Naxçıvan Muxtar Respublikasının yaranması, inkişaf yolu, ümumiyyətlə, muxtar respublikanın tarixi ilə maraqlananlar üçün çox ciddi və mötəbər mənbəyə çevriləcəkdir.

**Fəxrəddin SƏFƏRLİ**
***AMEA-nın müxbir üzvü***

## "Naxçıvan bəstəkarlarının uşaq mahnıları" adlı kitabın təqdimat mərasimi olub

*Noyabrın 14-də Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi ilə Bəstəkarlar Təşkilatı Heydər Əliyev Sarayında "Naxçıvan bəstəkarlarının uşaq mahnıları" kitabının təqdimat mərasimi keçirib.*






Bu münasibətlə keçirilən tədbiri Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova açaraq bildirib ki, mahnı janrı Azərbaycan xalqının musiqi yaradıcılığında ən qədim və sevilən janrlardan biridir. Məişət mahnılarının önəmli hissəsini təşkil edən musiqi janrlarından biri də uşaq mahnılarıdır və bu janr Azərbaycan musiqisində özünəməxsus yerə malikdir. Azərbaycan musiqi tarixində uşaq musiqisinin əsasını görkəmli bəstəkar Asəf Zeynallı "Uşaq süitası" əsəri ilə qoyub. Daha sonralar Soltan Hacıbəyovun ilk uşaq operası olan "İsgəndər və Çoban", Əşrəf Abbasovun ilk uşaq baleti "Qaraca qız"la uşaq musiqisi janrı daha da zənginləşdirilib. Lakin sırf mahnı janrına bir çox bəstəkarlar, o cümlədən Səid Rüstəmov, Fikrət Əmirov, Cahangir Cahangirov, Oqtay Zülfüqarov, Ramiz Mirişli və digər bəstəkarlar da müraciət ediblər ki, onların da yaratdıqları uşaq mahnıları dillər əzbəri olub. Bu günlərdə 100 illik yubileyini qeyd etdiyimiz görkəmli bəstəkar Qəmbər Hüseynlinin şair Tofiq Mütəllibovun sözlərinə yazdığı "Cücələrim" mahnısı dünyanın bir çox ölkələrində indi də səslənməkdədir.

Vurğulanıb ki, bu günlərdə "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində Naxçıvanda yaşayıb fəaliyyət göstərən bir qrup naxçıvanlı bəstəkarın əsərlərindən ibarət "Naxçıvan bəstəkarlarının uşaq mahnıları" adlı musiqi kitabı işıq üzü görüb. Kitabda Naxçıvan Muxtar Respublikasında yaşayıb-yaradan bir sıra bəstəkarın, o cümlədən Bəstəkarlar Təşkilatının sədri, muxtar respublikanın Əməkdar incəsənət xadimi Yaşar Xəlilovun, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimləri Şəmsəddin Qasımovun, Kamal Əhmədovun, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Vidadi Heydərovun, sənətşünaslıq üzrə fəlsəfə doktoru Günay Məmmədovanın və Naxçıvan Dövlət Universitetinin Fortepiano kafedrasının müəllimi Fəridə Ağayevanın uşaqlar üçün bəstələdikləri mahnılar yer alıb.

Buradakı mahnılar, əsas etibarilə, uşaq dilinə yatımlılıqları ilə seçilir. Bəstəkar musiqisi ilə milliliyin uğurlu sintezi kimi təqdim olunan kitabdakı mahnılar naxçıvanlı şairlərin sözlərinə bəstələnmiş mahnılardır. Kitabın məziyyətlərindən sayılacaq digər bir məqam isə buradakı mahnıların sözlərinin əksəriyyətinin mahnıları kitabda yer alan bəstəkarlara aid olmasıdır. Kitabda sözlərinə mahnı bəstələnmiş şeirlər Vətənimizin, eləcə də ölkəmizin ayrılmaz parçası olan Naxçıvanımızın tərənnümünə və bəşəri ideyaların təbliğinə həsr olunmuş yaradıcılıq nümunələridir. Həmin mahnılar uşaqlarda Vətənə, doğma el-obaya, ümumən, bəşəriyyətə sevgi, məhəbbət hissləri aşılamaqdadır. Kitabda həmçinin xalqımızın illər uzunu yaddaşlarda yaşatdığı milli ideologiyamızı tərənnüm edən, sözün əsl mənasında, insan qəlbini riqqətə gətirən istər şeir, istərsə də mahnı formasında lirik parçalar diqqəti xüsusilə cəlb edir. Ölməz söz sənətkarlarımızdan Hüseyn Cavidin, Abbas Səhhətin, Abdulla Şaiqin, Səməd Vurğunun, böyük alim Yusif Məmmədəliyevin, həmçinin Xanəli Kərimlinin, Zaur Vedilinin, Əbülfəz Ülvinin və başqalarının uşaqlar üçün qələmə aldıqları şeirlərinə bəstələnmiş mahnılar uşaq ruhunu oxşamaqla gələcəyimiz olan fidanlarımızın milli vətənpərvərlik, eləcə də bəşəri dəyərlərə hörmət və sədaqət ruhunda tərbiyə olunmasına öz töhfəsini verəcəkdir.

Bildirilib ki, kitabın təqdirəlayiq cəhətlərindən biri də burada olan mahnıların zəngin musiqi dilinə, müxtəlif alətlərin səslənmə rəngarəngliyinə və zənginliyinə malik olmalarıdır. Bu mənada, inanırıq ki, kitabdakı mahnılar hər bir dinləyicinin, xüsusilə uşaqların qəlbini fəth edəcək, onların musiqi zövqünün formalaşmasında mühüm rol oynayacaqdır.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının sədri Yaşar Xəlilov və Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin dekanı, Bəstəkarlar Təşkilatının üzvü Günay Məmmədova çıxış ediblər.

Çıxış edənlər mədəniyyətimizə göstərilən diqqət və qayğıya, həmçinin elmi və mədəni dəyəri olan nəşrlərin çap olunmasına göstərilən dəstəyə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıqlarını ifadə ediblər.

Tədbirə Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova yekun vurub.

**Səbuhi HƏSƏNOV**

## Karate-do Federasiyasının uğurları artır

***Bu gün Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən idman federasiyaları regionda idmanın inkişafı yönündə mühüm addımlar atırlar. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə birgə keçirilən tədbirlər uşaq, yeniyetmə və gənclərin müxtəlif idman sahələrinə maraqlarını birə-beş artırıb. Naxçıvanda idmanın kütləvi hal almasına öz töhfəsini verən federasiyalardan biri də Karate-do Federasiyasıdır.***



Federasiyanın muxtar respublikanın bütün şəhər və rayonlarında bölmələri fəaliyyət göstərir. Bölmələrdə federasiya tərəfindən təyin edilmiş müəllimlər uşaq və yeniyetmə idmançılara bu növün sirlərini öyrədirlər. Rayon bölmələri mütəmadi olaraq gənclər və idman idarələri ilə birgə təşkil etdikləri birinciliklərdə idmançıların yarış təcrübələrini artırırlar. Hazırda muxtar respublikada 1000-dən çox uşaq, yeniyetmə və gənc federasiyanın üzvüdür. Onu da qeyd edək ki, federasiya cari ildən qızların məşq etməsi üçün də əlavə bölmə açıb. Federasiyanın sədr müavini Nəriman Quliyev bizimlə söhbətində vurğuladı ki, qız bölməsinə müraciət edənlərin sayı gündən-günə artmaqdadır: "Karate-do Federasiyasının bütün rayonlarda bölmələri fəaliyyət göstərir. Naxçıvan şəhərində isə məşqlərimiz İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilir. Qız bölməsini yaratmaqda məqsədimiz bu idman növünə qızların marağını artırmaq, karatenin sirlərini onlara öyrətməkdir. Həftənin 3 günü Naxçıvan Muxtar Respublika Stadionunun inzibati binasında yerləşən zalda qızlar üçün məşqlər keçirilir və artıq məşqlərimizdə 30-dan çox gənc qız iştirak edir".

Məlumat üçün bildirək ki, Karate-do Federasiyası cari ildə ən çox yarış təşkil edən federasiyalardan biridir. Bəhs olunan dövrdə təşkil edilən 10 yarışda 600-dən çox idmançı mübarizə aparıb. Nəriman Quliyev bildirdi ki, ilin sonunda federasiya tədbirlər planına uyğun olaraq bir neçə yarış keçirəcək: "2016-cı ilin yanvar ayından başlayaraq muxtar respublikanın şəhər və rayonlarında nazirliklə birgə mütəmadi olaraq yarışlar, seminarlar təşkil etmişik. Elə ilin ilk ayında Gənclər və İdman Nazirliyinin yaradılmasının 90 illiyinə həsr olunmuş muxtar respublika çempionatında 100-ə yaxın idmançı mübarizə aparıb. Bakıdan dəvət olunmuş 4 komandanın da iştirak etdiyi "Heydər Əliyev Kuboku" uğrunda keçirilən açıq çempionatda isə 150-dən çox karateçi qüvvəsini sınayıb. Təkcə Naxçıvan şəhərində deyil, eyni zamanda rayonlarda da bölmələrimizin fəaliyyətinə xüsusi diqqət göstəririk. Təsadüfi deyil ki, ilin bu ayına kimi Şahbuz, Şərur, Ordubad, Babək, Culfa rayonlarında birinciliklər təşkil edilib. Eyni zamanda rayonlarda keçirilən birinciliklərdə digər rayonların da komandalarının iştirakı təmin olunub".

Muxtar respublika daxilində keçirilən bu yarışlar idmançıların ölkə birinciliklərinə və beynəlxalq turnirlərə hazırlığına müsbət təsir göstərir. İlin ilk 10 ayında federasiyanın idmançıları 3 müxtəlif ölkədaxili birincilikdə mübarizə aparıblar. Bakı şəhərində keçirilən yarışlarda idmançılarımız 9 müxtəlif əyarlı medal qazanıblar. Fevral ayında isə İran İslam Respublikasının Astara şəhərində keçirilən beynəlxalq turnirdə 3 idmançımız mükafatçılar sırasında olub.

Federasiyanın sədr müavini onu da qeyd etdi ki, hər ay idmançılar və məşqçilər üçün seminarlar keçirilir və onların muxtar respublika ərazisində olan muzeylərə ekskursiyaları təşkil olunur.

Bu gün Naxçıvanda start götürəcək karate-do üzrə beynəlxalq turnir bütün bu görülən işlərin nəticəsidir. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümü münasibətilə Şərur Olimpiya-İdman Kompleksində keçiriləcək beynəlxalq turnirdə ölkənin bir çox karate-do komandaları ilə yanaşı, Türkiyə və Gürcüstan yığmaları da mübarizə aparacaq. Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının yetirmələri də bu turnirdə iştirak edəcəklər.

**✍ Ceyhun MƏMMƏDOV**

---

*Naxçıvan Muxtar Respublikasında yerləşən Əlahiddə Ümumqoşun Ordusunda oktyabr ayında həqiqi hərbi xidmətə çağırılmış gənc əsgərlər hərbi andı qəbul ediblər.*

## Əlahiddə Ümumqoşun Ordusunun əsgərləri and içiblər



Hərbi hissənin döyüş bayrağı sıra meydanına gətirildikdən sonra and-içmə mərasiminə hazırlıqla bağlı məruzə olunub.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra gənc əsgərlər komandirlərinin və valideynlərinin şahidliyi ilə təntənəli surətdə and içiblər.

Əsgərlər hərbi andı qəbul etdikdən sonra çıxış edən zabitlər və əsgər valideynləri Silahlı Qüvvələrimizin gücü və döyüş imkanları barədə söz açıb, hərbi andı qəbul edən əsgərlərə xidmətlərində uğurlar arzulayıblar.

Sonra şəxsi heyətin təntənəli keçidi olub.

---

## İdmançımız Azərbaycan çempionu olub

10-13 noyabr tarixlərində Bakı şəhərindəki Ağır Atletika Akademiyasında ağır atletika üzrə kişilər və qadınlar arasında Azərbaycan kuboku keçirilib. Yarışda ölkənin bütün regionlarında fəaliyyət göstərən klub və idman cəmiyyətlərindən 200-ə yaxın atlet çıxış edib. "Azərbaycan Kuboku" uğrunda birincilikdə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin Şərur rayonundakı Ağır atletika bölməsinin yetirməsi Tərmenxan Babayev də mübarizə aparıb. 69 kiloqram çəki dərəcəsində idmançımız yeniyetmələr arasında birinci yerə layiq görülüb. Ağır atletimiz yeniyetmə olmasına baxmayaraq, müvafiq çəki dərəcəsində gənclər arasında da Azərbaycan çempionu adını qazanıb.

Sonda idmançımıza Azərbaycan Ağır Atletika Federasiyası və Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin diplom və medalları təqdim olunub.

---

## Muxtar respublikada epidemioloji vəziyyət sabitdir

***Muxtar respublikamızda oktyabr ayında epidemioloji vəziyyət sabit olub, zəhərlənmələr baş verməyib, infeksiya ocaqlarında profilaktik və epidemiya əleyhinə tədbirlər həyata keçirilib. Yeni doğulmuş uşaqların 94,5 faizi idarəolunan yoluxucu xəstəliklərə görə peyvənd alıb. Mövsümi xəstəliklərin və zəhərlənmələrin qarşısını almaq məqsədilə qidalanma sənayesi, kommunal, ictimai iaşə, ticarət, su təchizatı, müalicə-profilaktika müəssisələrinin rəhbərlərinə müvafiq göstərişlər verilib, su təchizatı sistemlərində, ictimai, inzibati və fərdi binalarda, məişət tullantıları qoyulan meydançalarda 30 min 322 kvadratmetr dezinfeksiya tədbirləri həyata keçirilib.***

Uşaq-yeniyetmə müəssisələri və məktəblərdə monitorinqlər və maarifləndirici tədbirlər keçirilib.

Kəskin respirator və digər infeksion xəstəliklərin qarşısının alınması məqsədilə bütün ictimai iaşə, ticarət, su təchizatı, sərhəd-keçid məntəqələrində profilaktik sağlamlaşdırıcı əks-epidemik tədbirlər görülüb.

Oktyabr ayı ərzində bakterioloji laboratoriya fəaliyyətini davam etdirib, 98 su, 334 yuyuntu və 1060 digər nümunələrin müayinələri aparılıb.

Obliqat qrupların bakterioloji müayinələri diqqət mərkəzində saxlanılıb, səhiyyə üzrə 378, təhsil üzrə 648, qidalanma sənayesi, ictimai iaşə və ticarət üzrə 154, kommunal sahələr üzrə 36, sürücülük üzrə 22 nəfər olmaqla, bütövlükdə, 1238 nəfər müayinədən keçib.

Sanitariya-kimyəvi laboratoriyalar şöbəsinin Qidalanma gigiyenası laboratoriyasında 5 nümunədə 19 müayinə aparılıb, o cümlədən yerli istehsal olan xörək duzu nümunələrində yodun, həmçinin 2 un nümunəsində bəsit elektrolit dəmir preparatlarının tələbata uyğunluğu müəyyən edilib.

Kommunal gigiyena laboratoriyasında 10 nümunədə 29, Toksikoloji, xarici mühitdə və ərzaq məhsullarında zəhərli kimyəvi maddələrin qalıq miqdarının təyini laboratoriyasında 4 nümunədə 7 müayinə aparılıb.

Əhalinin sanitariya sahəsində maarifləndirilməsi diqqət mərkəzində saxlanılıb, 16 mühazirə oxunub, 2 seminar keçirilib.

Əhalinin sanitariya-epidemioloji vəziyyətinin yaxşılaşdırılması məqsədilə muxtar respublikanın sanitariya-epidemioloji xidmət orqanları tərəfindən obyektlər sanitar-gigiyenik vəziyyətə görə yoxlanılıb, aşkar olunmuş nöqsanların aradan qaldırılması üçün xəbərdarlıqlar edilib.

***Naxçıvan Muxtar Respublikası***
***Səhiyyə Nazirliyinin***
***mətbuat xidməti***

---

***Sədərək rayonunun Sədərək kənd 1 nömrəli tam orta məktəbində rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Uşaq-gənclər idman məktəbinin birgə təşkilatçılığı ilə ümumtəhsil müəssisələrinin şagirdləri arasında boks turniri keçirilib.***

## Boks turnirinə yekun vurulub

Turnirin açılış mərasimində rayon Gənclər və İdman İdarəsinin rəisi Etibar Əliyev çıxış edərək bildirib ki, boks son illər muxtar respublikada ən çox sevilən idman növlərindən birinə çevrilib.

Yarışda 5 çəki dərəcəsi üzrə 30-a yaxın idmançı mübarizə aparıb. Yekun nəticəyə əsasən, 31 kiloqram çəki dərəcəsində Hamlet Qədimov, 37 kiloqram çəki dərəcəsində Kərim İsmayılov, 39 kiloqram çəki dərəcəsində Elşən Əliyev, 50 kiloqram çəki dərəcəsində Nofər Əlizadə və 53 kiloqram çəki dərəcəsində Yasin Əliyev bütün rəqiblərinə qalib gələrək birinci olublar.

Qaliblərə təşkilatçıların diplomları təqdim edilib.

***Xəbərlər şöbəsi***

---

## Naxçıvan Muxtar Respublikası üzrə 12 noyabr 2016-cı il tarixə taxıl səpininin gedişinə dair operativ məlumat

hektarla

| S/№ | Şəhər və rayonlar | Səpilən sahə | o cümlədən | |
|---|---|---|---|---|
| | | | buğda | arpa |
| 1. | Şərur rayonu | 2796,0 | 2687,0 | 109,0 |
| 2. | Babək rayonu | 5639,0 | 3976,0 | 1663,0 |
| 3. | Ordubad rayonu | 950,0 | 625,0 | 325,0 |
| 4. | Culfa rayonu | 3238,0 | 2887,0 | 351,0 |
| 5. | Kəngərli rayonu | 2851,0 | 1736,0 | 1115,0 |
| 6. | Şahbuz rayonu | 843,0 | 843,0 | - |
| 7. | Sədərək rayonu | 1042,0 | 987,0 | 55,0 |
| 8. | Naxçıvan şəhəri | 694,0 | 598,0 | 96,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **18053,0** | **14339,0** | **3714,0** |

---

## Sağlamlıq imkanları məhdud idmançılarımız II uşaq paralimpiya idman oyunlarında müvəffəqiyyətlə çıxış ediblər

Sağlamlıq imkanları məhdud uşaqların kütləvi şəkildə idman həyatına cəlb olunmasını təmin etmək məqsədilə bu kateqoriyadan olan uşaqlardan ibarət bədii gimnastika, boccia idman növləri üzrə bölmələr fəaliyyət göstərir. Sağlamlıq imkanları məhdud uşaqlar üçün hərtərəfli şəraitin yaradılması paralimpiyaçılarımızın ölkədaxili yarışlarda muxtar respublikanı layiqincə təmsil etməsinə zəmin yaradır.

Noyabrın 11-də Sumqayıt Paralimpiya İdman Kompleksində keçirilən II uşaq paralimpiya idman oyunlarında muxtar respublikamızı stolüstü tennis və boccia idman növü üzrə sağlamlıq imkanları məhdud 3 idmançı təmsil edib. Boccia idman növü üzrə yarışlarda həmyerlilərimiz müvəffəqiyyətlə çıxış ediblər. Belə ki, Güllü Yunisova birinci, İlqar Yunisov isə üçüncü yerə layiq görülüblər.

Onlar Milli Paralimpiya Komitəsinin diplom və kuboku ilə təltif olunublar.

***Naxçıvan Muxtar Respublikası***
***Əmək və Əhalinin Sosial Müdafiəsi***
***Nazirliyinin mətbuat xidməti***

---


## Tender elanı

İkinci Azərbaycan Kənd İnvestisiya Layihəsinin Naxçıvan Regional Əməliyyatlar Ofisinin əhatə etdiyi Ordubad rayonunun Baş Dizə icmasının tender komissiyası icma qrupunun hazırladığı "Yolun təmiri" adlı layihənin icrası məqsədilə keçirilən tenderdə iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir.

Tender komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:

* *Maraq məktubu*
* *Nizamnamə*
* *Maddi-texniki baza və insan resursları barədə məlumat*
* *Son 3 ildə infrastrukturtipli layihələrdə iş təcrübəsinin olması*

Qeyd olunmuş sənədlər toplusunu 22 noyabr 2016-cı il, saat $18^{00}$-a kimi tender komissiyasına təqdim etmək lazımdır.

***Ordubad rayonu, Baş Dizə kəndi***
***tender komissiyası icma qrupunun sədri:***
***Bahadur İsgəndərov***
***Əlaqə telefonu: (050) 867-00-51***



ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1050. Sifariş № 855